# Azərbaycanlı alimin kitabı ABŞ-ın Vaşinqton ştatında dərs vəsaiti kimi çap olunub

***AMEA Azad Həmkarlar İttifaqının sədri, hüquq elmləri doktoru, professor Habil Qurbanovun "Müqayisəli hüquqşünaslıq" əsəri bu günlərdə ABŞ-ın Vaşinqton ştatının Merilend şəhərində "Rockville" nəşriyyatında ingilis dilində dərs vəsaiti kimi çapdan çıxmışdır.***

Kitab hüquqi komparativistikanın tərkib hissələrindən biri olan müqayisəli hüquqşünaslığa həsr edilmişdir. Əsərdə müqayisəli hüquqşünaslığın inkişaf tarixinə, təkamül proseslərinə, müqayisəli hüquqşünaslığın ümumi xarakteristikasına toxunulur, onun ümumnəzəri hüquq elmi sistemində tutduğu yerdən və oynadığı elmi roldan bəhs olunur.

Dərs vəsaitində müqayisəli təhlillər əsasında dünyanın müxtəlif dövlətlərinin hüquq sistemlərinin ümumi və spesifik cəhətlərindən, onların oxşar və fərqli xüsusiyyətlərindən bəhs olunmaqla yanaşı, ayrı-ayrı ölkələrin, dövlətdaxili qurumların və dövlətlərarası birləşmələrin hüquq sistemlərinin səciyyəvi xüsusiyyətləri və müsbət cəhətləri nəzərdən keçirilir.

Dərs vəsaiti hüquq fakültələrinin tələbələri, doktorantlar, müəllimlər və




müqayisəli hüquqşünaslıqla maraqlananlar üçün nəzərdə tutulmuşdur.

*"Xalq qəzeti"*